**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FƏRDİ VƏ İCTİMAİ ŞÜURDA SÖZ MƏNASININ İNKİŞAF TƏMAYÜLLƏRİ

İxtisas: 5704.01 – Dil nəzəriyyəsi

Elm sahəsi: filologiya

İddiaçı: **Aytac Sadiq qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İ.Nəsimi adına Dilçilik İnstitutunun Sosiolinqvistika və psixolinqvistika şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Mayıl Binnət oğlu Əsgərov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**İlham Mikayıl oğlu Tahirov**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Cavanşir Xankişi oğlu Muradov**

filologiya üzrə fəlsəfə doktoru
**Sevinc Rasim qızı Rzayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor

__________ **Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent

__________ **Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent

__________ **Gülsüm İsrafil qızı Hüseynova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Sözün mənasının genişlənməsi hesabına yaranan çoxmənalılıq, sinonimlik və omonimlik məsələləri ənənəvi dilçilik baxımından tədqiq olunmuşdur. Təsviri, tarixi-müqayisəli, müqayisəli-tipoloji və funksional mövqelərdən yanaşmaqla bu istiqamətdə müəyyən uğurlar əldə edilmişdir. Sözdə məna və məzmunun nisbəti məsələsi, həmçinin semantik inkişaf problemi linqvistik, eləcə də psixolinqvistik tədqiqatların mərkəzi mövzusunu təşkil edir. L.Şerba, V.Vinoqradov, Azərbaycan dilçiliyində S.Cəfərov, Z.Verdiyeva, İ.Məmmədli, B.Xəlilov və digər alimlər sözün funksional imkanlarının müəyyənləşdirilməsinə linqvistik mövqedən yanaşmışlar. Sözün mənaca inkişafı probleminin psixoloji və psixolinqvistik mövqedən tədqiqinin nəzəri əsasları isə L.S.Vıqotski və J.Piaje tərəfindən qoyulmuş, A.N.Leontyev, A.R.Luriya, A.A.Leontyev, A.A.Zalevskaya, D.Slobin və başqa alimlər tərəfindən davam və inkişaf etdirilmişdi. Linqvistik yanaşma yolu ilə sözün dil və cəmiyyətin tarixi inkişaf prosesində məruz qaldığı semantik dəyişmələr öyrənilir. Psixoloji və psixolinqvistik istiqamət üzrə aparılan tədqiqatlarda isə, əsas diqqət fərdi və ictimai şüurda mənanın formalaşması probleminə və semantik inkişafın ümumi dinamikasına yönəlir.

XX əsrin ikinci yarısında dünya dilçilik elmində yeni istiqamət olaraq meydana gələn koqnitiv dilçilik sözdə mənanın inkişafı və çoxmənalılıq problemini də yeni yanaşmada tədqiq etməyi nəzərdə tutur. Koqnitiv semantika üzrə N.Boldirev, C.Lakoff və başqa alim və tədqiqatçılar diqqətəlayiq araşdırmalar aparmışlar. Burada çoxmənalılıq problemi, dünyanın konseptual və kateqorial mənzərəsi fonunda nəzərdən keçirilir. Semantik inkişafın əsasını məna və məzmunun məhz eyni bir kateqoriya çərçivəsində əlaqələndirilməsi prinsipi təşkil edir. Bu o deməkdir ki, eyni leksik vahid dərketmə proseslərinin nəticələrinin bir kateqoriya daxilində sintez edilməsi səbəbilə müxtəlif mənalarda istifadə edilə bilər.

Mövzunun tədqiqi tarixinin analizi bunu söyləməyə əsas verir ki, istər klassik dilçilik, istərsə də müasir linqvistik istiqamətlər sözün məna cəhətinin təkamülünün linqvistik və ekstralinqvistik amillərin qarşılıqlı təsirinin nəticəsi olması fikrində həmrəydir.

Son dövrlərdə Azərbaycan dilçiliyində istər psixolinqvistik, istərsə də koqnitiv dilçilik və linqvo-psixologiya ilə bağlı elmi tədqiqatlara meyl sürətlə artır. Dilin və nitqin linqvo-psixoloji fenomen olduğu nəzərə alınmaqla ənənəvi dilçilikdə tədqiq edilən bəzi vacib mövzular yeni yanaşma tərzi baxımından, koqnitiv və linqvo-psixoloji yöndən araşdırmalara cəlb olunur. Bu dövrün tələbidir və **Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının** 4.1.2-ci bəndi məhz bunu tələb edir, yəni aparılan elmi tədqiqatlarda dünya dilçilik elminin müasir inkişaf meyllərini nəzərə almaq və elmi araşdırmaları bu istiqamətə yönəltmək zəruri hesab olunur.

Bunu qətiyyətlə deyə bilərik ki, bu günə qədər Azərbaycan dilçiliyində fərdi və ictimai şüurda sözün mənasının inkişaf tendensiyaları koqnitiv aspektdə tədqiq edilməmişdir. Diskursu, onun söyləm və deyim kimi struktur vahidlərini əmələ gətirən sözün yaranma və dərk edilmə prosesləri, eləcə də sözün mənaca daralma və genişlənmə potensialı ilk dəfə olaraq məhz bu araşdırmada tədqiqata cəlb edilir və bu zaman elmi baza kimi linqvo-psixoloji vəhdət nəzəriyyəsinə istinad olunur.

Biz belə hesab edirik ki, koqnitiv dilçilik bazasında və linqvo-psixoloji vəhdət nəzəriyyəsi əsasında aparılan bu tədqiqat işi həm Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının tələblərinin icrası baxımından, həm də Azərbaycan dilçiliyində yeni yaranmış olan "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi"nin tətbiqi və təbliği baxımından faydalı olacaqdır.

**Tədqiqatın obyekti** ümumilikdə dil və o cümlədən türk, slavyan, roman və german dil ailələri, konkret olaraq Azərbaycan, türk, rus, alman və ingilis dilləridir.

**Tədqiqatın predmeti** ümumi halda diskursun minimal vahidi mahiyyətini daşıyan sözdür, konkret olaraq Azərbaycan, türk, rus, alman və ingilis dillərində işlənən sözlərdə müşahidə edilən mənaca daralma və genişlənmə nəticəsində müşahidə edilən inkişafdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi diskursun minimal vahidi mahiyyəti daşıyan sözün ümumi xarakteristikasını vermək, onun yaranma şərtlərini və mexanizmini, dərk olunma, mənaca daralma və genişlənmə potensialını araşdırmaq, fərdi və ictimai şüurda sözün mənaca daralma və genişlənməsinin yeni sözlərin yaranmasında və ümumilikdə dilin inkişafında oynadığı rolu təhlil etməkdir. Bu məqsədlərin əldə edilməsi üçün tədqiqatın qarşısında duran **vəzifələr** bunlardır:

- Ənənəvi dilçilik baxımından sözün yaranması, dərk olunması və çoxmənalılığın əmələ gəlməsi məsələlərini tənqidi şəkildə analiz etmək;
- Klassik psixolinqvistikada, xüsusilə də biheviorizm və neobiheviorizmdə, nitq fəaliyyəti nəzəriyyəsində söz və söyləm məsələsinə münasibəti araşdırmaq;
- Koqnitiv dilçilik və linqvo-psixoloji vəhdət nəzəriyyəsi baxımından sözün yaranma şərtlərini və mexanizmini nəzərdən keçirmək;
- Diskursun daxili elementlərini nəzərdən keçirmək və sözü diskursun minimal vahidlərindən biri kimi təqdim etmək;
- Sözün ikinci sıra gerçəklik elementi kimi dərk olunması mexanizmini müasir koqnitiv nəzəriyyələr bazasında şərh etmək;
- Sözün fərd və cəmiyyət tərəfindən dərk olunmasının oxşar cəhətlərini və prinsipial fərqlərini araşdırmaq;
- Nominativ intellektual inkişaf (əsasən uşaqlarda müşahidə olunur) və reprezentativ situativ məqamlar bazasında sözün mənasının fərdi və ictimai səviyyədə daralma və genişlənməsini araşdırmaq;
- Sözün mənaca daralma və genişlənməsinə ictimai şüurun təsirini təsbit etmək;
- Sözün mənaca daralma və genişlənməsinin yeni sözlərin yaranmasına və dilin inkişafına təsirini araşdırmaq.

**Tədqiqatın metodları**. Aparılan elmi-tədqiqat zamanı linqvistik təsvir, müşahidə, semantik komponentlər üzrə təhlil və kontekstual təhlil metodlarından istifadə olunmuşdur. Yeri gəldikcə müxtəlifsistemli dillərin tədqiqi zamanı tətbiq edilən müqayisəli-tutuşdurma üsulundan da istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

1. Mətn və diskurs bir birindən fərqlidir, amma biri digərinə çevrilə bildiyi kimi biri digəri əsasında yarana da bilir (ölü dillərə aid qədim mətnlər istisnadır).

2. Gerçəklik vahidi dərk olunub sözə çevrilənə və diskurs daxilində işlənənə qədər onun semantik qatında dəfələrlə ümumiləşmə, mücərrədləşmə və ya gerçəkliyin nisbi ifadəsi prosesi baş verir.

3. Hər bir söz fərd və cəmiyyət tərəfindən ikinci sıra gerçəklik elementi kimi dərk və qəbul olunur.

4. Nominativ intellektual inkişaf (əsasən uşaqlarda müşahidə olunur) bazasında sözün mənası fərdi səviyyədə daralır və ya genişlənir.

5. Reprezentativ situativ məqamlar bazasında sözün mənası ictimai səviyyədə daralır və ya genişlənir.

6. Sözün mənaca daralma və genişlənməsi yeni sözlərin yaranmasına və dilin ümumi inkişafına təsir edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, müxtəlif sintaqmatik cərgələrdə və diskursiv kontekstlərdə təzahür edən törəmə və məcazi xarakterli semantik komponentlərin yaranma mexanizmi linqvo-psixoloji aspektdə nəzərdən keçirilir. Sözdən kontekstual diskursiv istifadə zamanı aktuallaşan metaforik səciyyəli yeni məna elementlərinin meydana gəlməsi insan tərəfindən dərk edilən minimal vahid hesab olunan gerçəklik elementi bazasında şərh edilir. Sözün məna cəhətinin təkamülü subyektiv təcrübədə öz əksini tapan ümumiləşdirmə, assosiativ əlaqələndirmə və tam intellekt kodu əsasında gerçəkliyin şüurda yenidən modelləşdirilməsi və kommunikantların koqnitiv təsəvvürlərinin obyektivləşməsi olaraq qəbul edilir. Bu baxımdan tədqiqatda sözün fərdi şüurda fəaliyyət mexanizminin üzə çıxarılması başlıca istiqaməti təşkil edir. Sözdə

assosiativ sahənin yenidən qurulması müəyyən motivləşdirici elementə əsaslanır. Sözün məna strukturunda insan tərəfindən onun öz təsəvvürlərinə uyğun müəyyənləşdirilən baza komponent semantik proseslərdə motivləşdirici element funksiyasını icra edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqatın **nəzəri əhəmiyyəti** odur ki, bu tədqiqatda irəli sürülən nəzəri fikir və mülahizələrdən müxtəlif dillər üzrə aparılan analoji araşdırmalarda, o cümlədən sözün diskurs daxilində rolu məsələsinin, eləcə də yeni sözlərin yaranması və dilin zənginləşməsi yollarının tədqiqi zamanı nəzəri baza kimi istifadə etmək mümkündür. **Praktik əhəmiyyəti** isə odur ki, təhsil prosesində bu monoqrafik əsərdən analoji mövzular üzrə əlavə vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi:** Tədqiqat işinin əsas müddəalarını əks etdirən 23 elmi əsər nəşr olunmuşdur. Onlardan 8-i konfrans materialı (2-si xaricdə), 15-i AAK-ın qəbul etdiyi elmi toplularda nəşr olunmuş elmi məqalədir. Bu məqalələrdən 2-si beynəlxalq istinad indeksinə malik olan xarici elmi toplularda nəşr edilmişdir: Basic Factors Motivating the Extension of Word Meaning // - International Journal of English Linguistics, - Canada: Canadian Center of Science and Education. - 2020. Vol.10, No. 5, - p. 60-67; Иерархия и взаимозамещение лексико-семантических вариантов в семантической структуре слова // Актуальні питання гуманітарних наук: Міжвузівський збірник наукових праць молодих вчених Дрогобицького державного педагогічного університету імені Івана Франка, - 2020. Выпуск 30. Том 2, - с. 104-111.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İ.Nəsimi adına Dilçilik İnstitutunun “Sosiolinqvistika və psixolinqvistika” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 7 səhifə, birinci fəsil 51 səhifə, ikinci fəsil 33 səhifə, üçüncü fəsil 46 səhifə, nəticə hissəsi

2 səhifə olmaqla dissertasiya işinin ümumi həcmi (ədəbiyyat siyahısını nəzərə almadan) 142 səhifə və ya 276 994 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekt və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli** ***"Sözün yaranması ilə bağlı linqvistik və psixoloji modellər"*** adlanır. Bu fəsil dil sisteminin müstəqil struktur elementlərindən biri kimi sözün yaranması mövzusuna həsr olunmuşdur və altı yarımfəsildən ibarətdir. ***"Ənənəvi dilçilikdə sözün yaranması məsələsinə münasibət"*** adlanan birinci yarımfəsildə bu istiqamətdə aparılan tədqiqatlara münasibət bildirilir.

Klassik linqvistik tədqiqatlarda söz əsasən iki, yəni zahiri (qrafiki və ya fonetik) və daxili (məna) cəhət, bəzən isə mənanın mənbəyi də nəzərə alınmaqla üç cəhətin vəhdəti kimi müəyyənləşdirilmişdir. Müxtəlif tədqiqatlarda sözü nitqdə bütöv və sərbəst şəkildə təkrarlana bilən leksik-qrammatik mənalı ən kiçik müstəqil dil vahidi[1], təfəkkür və məfhumların təbiət materiyası[2], təkcə predmet və ya predmetlərin adı deyil, həm də mənanın, bəzən isə bütöv bir məna sisteminin ifadə vasitəsi[3] adlandırırlar. Fikrimizcə, sözü söyləmin qurulması üçün nitq zamanı yaranan və

---

[1] Müasir Azərbaycan dili: [3 cilddə] / redaktor M.A.Şirəliyev, Z.İ.Budaqova - Bakı: Elm, - c.1., -1978, - s. 102

[2] Məmmədov N. Dilçiliyə giriş: filologiya fakültələri üçün dərslik / N.Məmmədov, A.Axundov – Bakı: Maarif, -1980, - s. 100-105

[3] Виноградов, В.В. Лексикология и лексикография: избранные труды / В.В. Виноградов. - Москва: Наука, -1977, - с. 163

dilin məna kəsb edən müstəqil vahidi adlandırmaq, eyni zamanda müəyyən bir məfhumun ifadəçisi olması səbəbilə, onu məfhumun işarəsi hesab etmək daha doğru olar.

Leksikologiyanın predmeti kimi söz fonoloji, morfoloji və semasioloji cəhətdən bütöv bir tam mahiyyəti daşıyır. Dildə leksik, morfoloji, sintaktik və semantik yolla söz yaradıcılığının bəlli modelləri və sxemləri vardır ki, onların nümunəsində yeni söz yaradıcılığı həyata keçirilir. Lakin, ilk morfemlərin, kök sözlərin necə yaranması mübahisə doğurur. Müxtəlif dövrlərdə dilçi və psixoloqlar dilin genezisi məsələsini şərh etmək istiqamətində çoxsaylı konsepsiya və nəzəriyyələr hazırlamışlar.

Bu fəsildə həmçinin leksik, morfoloji, sintaktik və semantik üsullarla söz yaradıcılığının elmi bazası şərh olunur. Semantik üsulla söz yaradıcılığı demək olar ki, istisnasız olaraq bütün dillərdə təsadüf olunur. Morfoloji üsul isə flektiv və iltisaqi dillər üçün xarakterikdir.

Ənənəvi dilçilikdə sözün təbiətini müəyyənləşdirmək üçün aparılan tədqiqatları nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, burada sözün yaranması daha çox dilin fonetik, semantik, qrammatik və söz yaradıcılığına dair qanunları ilə əlaqələndirilmiş, əsasən derivatologiya məsələlərinin araşdırılmasına, sözün formal təsvirinə daha çox üstünlük verilmişdir.

Müxtəlif dillər üzrə sözün yaranması şərtləri ilə bağlı aparılan araşdırmalar göstərir ki, sözün motivasiyasının əsasını ətraf aləmdə mövcud olan varlıqların xüsusiyyət, əlamət və digər predmetlərə nəzərən bənzərlikləri haqqında həmin xalqın mental təsəvvürləri təşkil edir. *"Xalqın dili, adlandırma prinsipi xalqın dünyabaxışının sözləşmiş mənzərəsidir, desək, yəqin ki, səhv etmərik"*[4]. Sözün zahiri cəhəti ilə onun məzmunu arasında bağlılıq barədə B. Qolovin yazır ki, *əgər sözün səs tərkibi predmetdən və ya onun hər hansı əlamətindən asılı olsa idi, müxtəlif xalqların dilində eyni səs tərkibli*

[4] Abdulla, K. Dilçiliyə səyahət: dilçi olmayanlar üçün dilçilik / K.Abdulla. -Bakı: Mütərcim, - 2010, - s. 144

*sözlərlə ifadə olunardı. Lakin, müşahidələr bunun əksini göstərir*[5]. Eynilə, bir sözün müxtəlif dillərdə tamamilə fərqli anlayışı bildirməsinə dair müxtəlif nümunələrə də rast gəlmək olar. Məsələn, alman dilində *hell* sözü *işıqlı; açıq rəng* (*hellgrün – açıq yaşıl* və s.), ingilis dilində isə *cəhənnəm* mənası daşıyır.

Sözün yaranması şərtləri barədə tədqiqatlarda əksini tapan məsələlərdən biri də sözün daxili formasının[6] onun morfoloji və semantik quruluşundan nə dərəcədə asılı olması, sözün yaranmasında motivləşmənin[7] roludur. Burada sözün daxili forması predmetin adlandırılması üçün baza mahiyyəti daşıyan müəyyən bir əlaməti aşkar edir. Nəticədə, predmet, əşya, əlamət və ya hadisəyə müəyyən ad verilməsi zamanı insan təfəkkürünün bu və ya digər məzmunu müəyyən səs kompleksi ilə əlaqələndirdiyi hərəkət istiqaməti bəlli olur.

Sinxron aspektdə dil daşıyıcılarının sözün mənşəyi haqqında hansı təsəvvürlərə malik olmaları baxımından sözdə motivasiyanın üç növü ayırd edilir:

1) Fonetik motivasiya sözün səs kompleksi ilə onun mənası arasında mövcud olan birbaşa əlaqədir və əsas etibarilə səs təqlidi formasında təzahür edir, məsələn, *tıqqıltı, uğultu, swish, bang, thud, splash, boom.*

2) Morfoloji motivasiya sözün strukturunu təşkil edən morfemlər ilə onun mənası arasındakı bağlılığı ifadə edir. Bu tip sözlərin mənası sözü təşkil edən komponentlərin leksik mənası əsasında müəyyənləşir. Məsələn, *re-write* – yenidən yazmaq, *singer* – müğənni, *пятница* – cümə, *подснежник* – novruzgülü - kardelen və s.

3) Semantik motivasiya sözdə eyni zamanda həqiqi və məcazi mənanın mövcud olması hesabına yaranır, məsələn ingilis dilində

---

[5] Головин, Б.Н. Введение в языкознание / Б.Н.Головин. – Москва: Высшая школа, - 1983, - с. 70

[6] Кодухов, В.И. Введение в языкознание / В.И. Кодухов. – Москва: Просвещение, - 1987, - с. 166

[7] Axundov, A. Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları / A.Axundov. – Bakı: Şərq-Qərb, - 2011, - s.85-86

*chain* (zəncir) sözünün həqiqi mənasının metaforik genişlənməsi hesabına *chain of mountain* - dağ silsiləsi, *hotel chain* - otellər şəbəkəsi və s. mənalar bildirir.

Göründüyü kimi, düzəltmə və mürəkkəb sözlərin derivatoloji quruluşu motivləşmənin mənbəyini asanlıqla tapmağa imkan verir.

Bəzən isə dilin tarixi inkişaf prosesində müxtəlif fonetik və orfoqrafik dəyişikliklər, mürəkkəb sözdən sadə sözün əmələ gəlməsi və s. səbəblərdən sözün motivasiyası itirilə bilər. Qədim ingilis dilində işlənən *wifman* sözünə nəzər yetirdikdə, bu sözün morfoloji quruluşu *wif +man* şəkildə özünü göstərir: "*wife of a man*" kişinin həyat yoldaşı, buradan da qadın mənasında işlənən *woman* sözü formalaşmışdır. Bundan əlavə, qrammatik şəkilçili bəzi sözlər də müasir dildə tərkib hissələrinə ayrılmayan kök söz kimi sabitləşmişdir. Məsələn, *ertə, erkən* sözlərində[8] olduğu kimi sözün kökü öz müstəqilliyini itirmişdir. Beləliklə, daxili formasını itirmiş və motivləşmədən kənar hesab edilən sözlərin mövcudluğu tarixi inkişafın gedişində morfoloji quruluşun sadələşməsi prosesi, həmçinin fonetik və semantik dəyişmələrin nəticəsi hesab edilə bilər.

Natamam motivasiyalı sözlərə gəldikdə isə, sözdə morfoloji komponentlərdən birinin mənası məlum olduğu halda digəri qeyri-məlum olaraq qalır, məsələn, İngilis dilində *cranberry* sözü, Azərbaycan dilində *qarağat* sözü və s.

Məlum olduğu üzrə, insanın idrak fəaliyyəti ümumilikdə obyektiv varlığın dərk olunmasına yönəlmişdir. M.Əsgərov sözün yaranması şərtlərini dərketmə ilə əlaqədar izah edərək yazır: "*Əgər gerçəklik elementi əvvəlcədən dərk olunmamışdırsa, ya da adının verilməsi ilə eyni vaxtda dərk edilmirsə, onunla bağlı söz yarana bilməz*"[9]. "*Haqqında informasiya vermək lazım gəlməyən gerçəklik elementi ilə bağlı dil vahidi mahiyyəti daşıyan forma, ümumiyyətlə yaranmır*"[10]. Təfəkkürün erkən inkişaf mərhələlərində, eləcə də

---

[8] Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov. – Bakı: Zərdabi LTD, - 2015, - s. 400

[9] Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015, - s. 96

[10] Yenə orada, - s. 163

sonrakı dövrdə insan müəyyən predmeti, əşya və ya hadisəni onun yalnız hansısa dərk olunan əlaməti yaxud ən əlamətdar hesab etdiyi xüsusiyyəti üzrə, həmçinin informasiya mübadiləsi ehtiyacı səbəbi ilə adlandırmışdır. Söz psixoloji fəaliyyət nəticəsində, eyni zamanda linqvistik norma və qanunlara uyğun şəkildə yaranır.

Məlum olduğu kimi, psixolinqvistika dil vahidinin yaranması və dərk edilməsi qanunauyğunluqlarını öyrənən, nitqin yaranam və mənimsənilmə mexanizmini psixoloji proseslərlə əlaqədar nəzərdən keçirən elmi istiqamətdir. Bu yarımfəsildə psixolinqvistik istiqamətin keçdiyi inkişaf yolu ardıcıl olaraq izlənilir. Klassik psixolinqvistika tarixində mövcud olmuş birinci istiqamətin - biheviorizmin yaradıcılarından biri olan Ç.Osquda görə, psixolinqvistika məlumat və onu şərh edən insan arasındakı əlaqələri, kodlaşdırma və dekodlaşdırma prosesləri ilə əlaqədar ünsiyyəti öyrənən elm sahələrindən biridir[11].

Ç.Osqud və N.Xomski tərəfindən yaradılan neobiheviorizm adlı ikinci psixolinqvistik istiqamətin isə linqvistik əsaslarını N.Xomski tərəfindən irəli sürülən "transformativ qrammatika nəzəriyyəsi" təşkil edir. Burada nitq davranışının mənimsənilməsi üçün diləqədərki biliklərin, dil mənimsəmənin koqnitiv vasitələri olan müəyyən dərketmə strukturlarının tələb olunması əsas xüsusiyyət kimi nəzərdən keçirilir. Lakin, dil strukturlarının mənimsənilməsinin koqnitiv bazası sosial təcrübə ilə formalaşdığına görə, N.Xomskinin dil strukturlarının anadangəlmə xarakteri və generativ (törədici) qrammatikanın koqnitiv kökləri ilə bağlı fikirləri tənqid və mübahisələrə səbəb oldu. Bununla yanaşı, C.A.Miller və N.Xomski konsepsiyası psixolinqvistika tarixində keyfiyyətcə yeni mərhələ təşkil etdi.

L.S.Vıqotski sözün mənasının təfəkkür və nitqin vəhdətini özündə əks etdirməsini belə şərh edir: *"Sözün mənası hər iki prosesin ayrılmaz vəhdətini əks etdirir: onun nitq fenomeni yoxsa təfəkkür fenomeni olduğunu söyləmək olmur... O, sözlü düşüncəyə və*

[11] Psycholinguistics. A Survey of Theory and Research Problems / Ed.by Ch. E.Osgood, T.A.Sebeok, - Indiana University Press, - 1965, - p. 2-4

*yaxud məna qazanmış sözə aid fenomen olmaqla, söz və fikrin vəhdətidir"* [12].

A.A.Leontyevin fikrincə, *nitq fəaliyyətinin və ya nitq təfəkkürünün vahidi dil işarəsi, yəni məhz, daxili cəhətdən, məna baxımından nəzərdən keçirilən sözdür*[13]. İstər biheviorizm və neobiheviorizmdə, istərsə də üçüncü nəsil psixolinqvistik məktəb hesab edilən nitq fəaliyyəti nəzəriyyəsinə əsaslanan klassik psixolinqvistikada ilkin meyar və ya apellyativ vahid söz hesab olunsa da, düşünmə və təfəkkür, ümumilikdə dərketmə prosesinin əsasında məhz nitqin dayandığı iddia edilir.

Dördüncü yarımfəsildə müasir dilçilik konsepsiyaları paradiqmasında öz yerini tutan ***"Koqnitiv dilçiliyin söz probleminə münasibəti"***ndən bəhs olunur. Koqnitiv dilçilikdə əsas istiqamət konseptual sistem məsələlərini araşdırmaq, baza termin isə konsept terminidir. Konsept dildə müxtəlif səviyyələrə aid dil struktur vahidləri vasitəsilə obyektivləşir və ya öz əksini tapır. Z.D.Popova və İ.A.Sterninə görə, *konsept, koqnitiv fəaliyyətin nəticəsini özündə əks etdirməklə, insanın təfəkkür kodunun əsas vahididir* [14].

Konsept sözlə bağlı olsa da, tam şəkildə ona bərabər deyil. Şüur elementi olmaqla konsepti fərqləndirən əsas əlamət onun subyektiv xarakteridir. Konsept konnotativ qiymətləndirmə və assosiativ səciyyələndirməni də özündə birləşdirir. C.Lakoff bəşəri konseptual sistemin əksər hissəsinin metaforik cəhətdən strukturlaşmasından, müxtəlif konseptlərin, məsələn, *mübahisə* və *müharibə* konseptlərinin qismən də olsa birinin digərinin əsasında dərk edilməsindən bəhs edir[15].

Koqnitiv tədqiqatlarda dil biliklərinin reprezentasiyası iki əsas dərketmə prosesinin nəticəsi olaraq meydana çıxır - konseptuallaşma

---

[12] Выготский, Л.С. Мышление и речь / Л.С. Выготский. Санкт-Петербург: Питер, - 2018, - с. 354-355

[13] Леонтьев, А.А. Слово в речевой деятельности / А.А.Леонтьев. – Москва: URSS, КомКнига, - 2006, - с. 164

[14] Попова, З.Д. Когнитивная лингвистика / З.Д.Попова, И.А.Стернин – Москва: Восток-Запад, - 2007, - с. 24-25

[15] Lakoff G. Metaphors We Live by / G.Lakoff, M.Johnson. – London: The University of Chicago Press, - 2003, - p. 9-12

və kateqoriyalaşma. B.Boldirevə görə, insanın konseptual sistemində bilik vahidləri dildə leksik reprezentasiya olunan ümumi tematik anlayışlar və ümumiləşdirici kateqoriyalar formasında təqdim olunur[16]. F.Veysəlli isə belə hesab edir ki, *konseptuallaşma referentin və ya referens sahəsinin mental təzahürü və konfiqurasiyası kimi başa düşülməlidir*[17]. Beləliklə, bu iki mühüm dərketmə prosesi biliklər sisteminin, dünyanın mənzərəsinin insan şüurunda anlayışlar və kateqoriyalar kimi formalaşması ilə bağlıdır.

Koqnitiv dilçiliyin başlıca nəzəri problemlərindən biri sözlə məfhumun qarşılıqlı əlaqəsidir. R.L.Solso, *anlayışı* ona xas olan mühüm əlamətlərin məcmusu hesab edir[18] və onun fikrincə *anlayış* bəzən bir, bəzən isə bir neçə leksemlə verballaşa bilər.

Koqnitiv semantikanın ən mühüm cəhəti mənanı yeni yanaşmada şərh etməsi, antroposentrik (insan mərkəzli) faktora daha çox önəm verilməsidir. Burada sözün çoxmənalılığı təkcə onun semantik strukturunun çoxkomponentli olması deyil, həm də müxtəlif konseptual əlamətlər hesabına sözün müxtəlif məzmun çalarlarında istifadə oluna bilməsi hesab olunur.

***"Linqvo-psixoloji baxımdan sözün yaranma mexanizmi"*** adlı yarımfəsildə Azərbaycan dilçiliyində yeni yaranan nəzəriyyə baxımından sözün yaranma mexanizmi nəzərdən keçirilir. Məlum olduğu kimi, nitq fəaliyyəti zamanı dil və onun struktur vahidləri linqvistik qanun və normalara tabe olduğu kimi, psixoloji norma və prinsiplərə də tabe olur. Bu səbəbdən, dil, ikili, yəni həm linqvistik, həm də psixoloji mahiyyətə malik kateqoriya kimi qəbul edilir. *"Dil bir tərəfdən öz struktur vahidləri olan forma və nitq söyləmləri ilə birlikdə təfəkkür proseslərinin son məhsulu kimi meydana çıxır.*

---

[16] Болдырев, Н.Н. Когнитивная лингвистика / Н.Н.Болдырев. – Москва: Директ-Медиа, -2016, - с. 58-59

[17] Veysəlli, F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri / F.Y.Veysəlli. – Bakı: Mütərcim, - 2015, - s. 46

[18] Солсо, Р.Л. Когнитивная психология / Р.Л.Солсо. - Санкт-Петербург: Питер, -2006, - с.333-334

*İkinci bir tərəfdənsə, bir güzgü kimi məhz dərk olunmuş gerçəklik elementlərini əks etdirir"* [19].

M.Əsgərovun fikrincə, *dərketmə və təfəkkür kimi beyin fəaliyyətləri, dil və onun söz, forma, söyləm, nitq kimi vahidləri ilə deyil, yaddaşımızda mühafizə edilən intellekt obrazları və kodları ilə reallaşır*[20]. Yəni, söz dərketmə və təfəkkürün vasitəsi deyil, son məhsuludur. Gerçəklik vahidi dərk olunub sözə çevrilənə və diskurs və ya söyləm daxilində işlənənə qədər onun semantik qatında dəfələrlə ümumiləşmə, təxminləşmə və ya gerçəkliyin nisbi ifadəsi prosesi müşahidə edilir.

Düşünərək dərketmə yolu ilə gerçəklik vahidinin adlandırılması zamanı çox vaxt onun əsas funksiyası, mahiyyəti ilə bağlı abstrakt təsəvvürdən istifadə edilir. Buna görə də gerçəklik vahidi ilə bağlı ilkin təsəvvürlərin eyni olmasına baxmayaraq, gerçəklik vahidlərinə fərqli adların verilməsi bir tərəfdən müxtəlif dillərin, digər tərəfdən isə, eyni bir dil daxilində sinonim cərgələrin yaranmasına səbəb olur.

Bunu da qeyd edək ki, gerçəklik vahidinin funksional rolu və zahiri görünüşü nəzərə alınmaqla, müxtəlif dillərdə fərqli meyarlar, dominant hesab olunan xüsusiyyətlər əsasında ona fərqli adlar verilir. İstənilən halda, sözün yaranması prosesində dərketmənin minimal vahidləri ($GE_1$+$İO_1$) ilə dilin minimal vahidlərinin ($GE_2$+$İO_2$) eyni bir kodda birləşməsinin şahidi oluruq və bunun da nəticəsi olaraq tam intellekt kodu yaranır.

Müasir elmi ədəbiyyatda işlənən diskurs terminini izah edərkən T.A.van Deyk göstərir ki, geniş mənada diskurs danışan və dinləyən arasında müəyyən zaman və məkan daxilindəki ünsiyyət fəaliyyəti prosesində yaranan kommunikativ hadisədir. Dar mənada diskurs kommunikativ təsirin yalnız verbal təşkiledicisi əsasında formalaşan "mətn" və ya "danışıq"dır[21]. A.Məmmədov və M.Məmmədov da

---

[19] Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015, - s.170

[20] Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015,- s. 56

[21] Dijk T.A. Van. Text and context. Exploration in the Semantics and Pragmatics of Discourse/ T.A.Van Dijk. - London-New-York: Academic Press, - 1983, - s. 72

diskursu mətn və kontekstin vəhdətində nəzərdən keçirirlər. Onlar N.Enkvistin bu fikrini qeyd edirlər ki, *"Diskurs mətn ilə situasiya komponentinə malik kontekstin məcmusudur"*[22].

Diskursu həm nəticə, həm də proses kimi nəzərdən keçirən V.V.Krasnıx belə hesab edir ki, diskurs linqvistik, eyni zamanda ekstralinqvistik plana malik olan verbal ifadə olunmuş nitq-təfəkkür fəaliyyətidir[23]. Ümumən, belə hesab etmək olar ki, diskurs mətndən başqa, mətni başa düşmək üçün zəruri olan ekstralinqvistik amilləri (dünya haqqında biliklər, münasibət, adresatın məqsədi və s.) özündə birləşdirən mürəkkəb kommunikativ hadisə və ya nitq axınıdır.

Diskurs, adətən mətn üstəgəl situasiya, mətn isə, müvafiq olaraq diskurs çıxılsın situasiya şəklində şərh olunur. Mətni anlama ilə bağlı T.A. van Deyk və V.Kinç modelinə görə, dərketmə, həmçinin daxili koqnitiv informasiyanın aktivləşdirilərək istifadəsini nəzərdə tutur. Onlar bu tip informasiyanı presuppozision əsas adlandırır[24].

Bütün bunlar göstərir ki, mətn formal konstruksiya, diskurs və nitq isə mətnin konsituasiyada (situativ kontekstdə) aktuallaşmasının müxtəlif formalarıdır. Diskurs ekstralinqvistik, praqmatik, psixoloji və digər amillərlə müşayiət olunan əlaqəli mətndir, məqsədyönlü sosial situasiyada insanların qarşılıqlı fəaliyyəti nəticəsində və koqnitiv prosesdə yaranan situativ nitqdir. Yəni, diskursun emal və interpretasiyası təkcə koqnitiv deyil, həm də ictimai hadisədir.

Diskursu əmələ gətirən minimal vahidlər sırası və silsiləsi ilə diskurs, söyləm, deyim və sözdür. Bir qayda olaraq sözlər əsasında deyim, deyimlər əsasında söyləm, söyləmlər əsasında isə diskurs yaranır. Bununla yanaşı, bəzən ayrıca bir söz eyni anda həm deyim, həm söyləm, həm də diskurs kimi, ayrıca bir deyim, həm söyləm,

---

[22] Məmmədov, A. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Məmmədov, M.Məmmədov – Bakı: Çaşıoğlu, - 2010,- s. 9

[23] Красных, В.В. Основы психолингвистики и теории коммуникации. Лекционный курс / В.В. Красных. – Москва: Гнозис, 2001, - с. 200-203

[24] Дейк Т.А. ван и Кинч В. Стратегия понимания связного текста // – Москва: Новое в зарубежной лингвистике, – 1988. № 23, Когнитивные аспекты языка http://philologos.narod.ru/ling/dijk.htm

həm də diskurs kimi, ayrıca bir söyləm eyni zamanda diskurs kimi çıxış edə bilir[25]. Buna misal olaraq baş üzvlərdən yalnız birinin iştirakı ilə qurulan təktərkibli cümlələri göstərmək olar: *Qışdır.* (Xəbər əsasında formalaşan) *XIII əsr. Qarabağ xanlığı.* (Mübtəda əsasında formalaşan). Bu nümunələrdə söz və ya söz birləşmələri ayrıca sintaktik vahid rolunda çıxış edir.

Bir sözün söyləm rolunda çıxış etməsinə yarımçıq cümlə nümunə ola bilər. Bu zaman öz verbal ifadəsini tapmayan cümlə üzvləri nitq situasiyasına əsaslanmaqla asanlıqla bərpa oluna bilər. Onların istifadəsinə əsasən dialoji diskursda rast gəlinir. – *Sən hara gedirsən? – Şəhərə. – Sən bura nə vaxt gəlmisən? – İndi.*

Söz diskursun minimal vahidi mahiyyətini daşıyır. Söyləm, deyim və söz həm diskursun, həm də nitqin daxili elementləridir. Burada fərqli cəhət odur ki, diskurs nitq situasiyasını, yəni real situasiya və prosesləri də əhatə edir.

Dissertasiyanın **II fəsli *"Sözün dərk olunması"*** adlanır. Bu fəsil beş yarımfəsildən ibarətdir.

***"Ənənəvi dilçilikdə sözün dərk olunması məsələsinə münasibət"*** adlı birinci yarımfəsildə göstərilir ki, siqnifikativ məzmunun dərk olunması üçün sözlə obyektiv varlığın müxtəlif predmet, hadisə, hərəkət və ya əlamətləri arasında fikri əlaqənin mövcudluğu mühüm şərtdir. B.Qolovinin fikrincə, bizim şüurumuzda sözün maddi-fiziki siması *"iz qoyur"*, əks olunur[26]. İ.Məmmədov, xarici aləmin dərk olunmasında, predmet və hadisələr arasında oxşar, oxşar olmayan və həmhüdud cəhətlərin aşkar edilməsində fikrən aparılan müqayisənin rolunu qeyd edir[27]. R.H.Robins isə, sözün mənası ilə əlaqədar danışan və ya dinləyən şəxsin

---

[25] Əsgərov, M.B. Diskurs, nitq və mətnin linqvo-psixoloji mahiyyəti və qarşılıqlı transformasiya potensialı // - Bakı: Dilçilik institutunun əsərləri, - 2018. №1, - s. 259-266

[26] Головин, Б.Н. Введение в языкознание / Б.Н.Головин. – Москва: Высшая школа, - 1983, - с. 71-72

[27] Məmmədov, İ. Azərbaycan dilinin semantikası / İ.Məmmədov. Bakı: Xəzər, - 2006, - s. 233

təsəvvüründə yaranan və onun şəxsi təcrübələrinin bir hissəsi olan fikri mənzərə (*mental picture*) anlayışından bəhs edir[28]. Ümumilikdə, bu tədqiqatlarda sözlə onun ifadə etdiyi anlayış arasında əlaqə yaradılmasında insan təfəkkürünün vasitəçi rolunun birmənalı qəbul edildiyini görmək mümkündür.

Ənənəvi dilçilikdə dərketmə ilə bağlı söylənilən fikirlərə nəzərən belə qənaətə gəlmək olar ki, sözün mənası gerçəkliyin mürəkkəb semantik bütöv təşkil edən əksini canlandırır.

Klassik psixologiya və dilçilik elmləri söz və onun mənası arasındakı əlaqənin assosiativ xarakterə malik olması qənaətindədir. Psixoloji aspektdə sözün mənası problemini praktiki şəkildə öyrənən L.S.Vıqotski belə hesab edir ki, nitqin dərk olunması sözlərin tanış obrazlarının təsiri altında ağla gələn assosiasiyalar zəncirinə əsaslanır. O, nitq təfəkkürü zamanı sözdən onun mənasına doğru, eləcə də mənadan sözə doğru assossiativ xətti hərəkətdən bəhs edir və yazır: *"Danışmaq daxili plandan zahiri plana keçid tələb edir, dərketmə isə nitqin zahiri planından daxili plana əks istiqamətdə hərəkəti nəzərdə tutur"*[29]. A.R.Luriyaya görə, adekvat dərketmə söz mənasının müvafiq semantik səviyyəsinin seçilməsini nəzərdə tutan mürəkkəb psixoloji prosesdir[30]. Bunu da qeyd etmək lazımdır ki, Nitq fəaliyyəti nəzəriyyəsində nitq təfəkkürünün söz vasitəsilə həyata keçdiyi iddia edilir. Bu səbəbdən burada sözün yaranma və mənimsənilmə mexanizminin şərhinə imkan verən intellekt obrazları unudulur. Bununla yanaşı qeyd olunan tədqiqatlar, sözün yaddaşda mühafizəsi, məlumatın dərk edilməsi və ya dekodlaşdırılmasını müəyyən edən əsas mexanizmlərin üzə çıxarılması istiqamətində irəliyə doğru mühüm addımı təşkil etdi.

***"Linqvo-psixoloji baxımdan sözün dərk olunması mexanizmi"*** adlı yarımfəsildə sözün dərk olunmasını şərtləndirən

---

[28] Robins R. H. General linguistics. An introductory survey / R.H.Robins. – London: Longmans, - 1968, - p.23

[29] Выготский, Л.С. Мышление и речь / Л.С. Выготский. Санкт-Петербург: Питер, - 2018, - c. 357; Yenə orada: - c. 373

[30] Лурия, А.Р. Язык и сознание / А.Р.Лурия. – Москва: Издательство Московского университета, - 1979, - с. 202-203

psixoloji proseslərin linqvo-psixoloji aspektdə izahı verilir. M.Əsgərov, mövcud formaların yaranma və mənimsənilməsi prosesini aşağıdakı ardıcıllıqda təqdim edir: *"Nitq ehtiyacı → dil struktur vahidi ilə kontakt → ikinci intellekt obrazının aktivləşməsi → gerçəklik elementi ilə qarşılaşdırma → birinci intellekt obrazı ilə birləşmə"*[31]. Bu o deməkdir ki, vizual yaxud vokal yolla əvvəlcə söz və ya forma haqqında məlumat əldə etmiş oluruq. Lakin, bu məlumat həmin gerçəklik elementini yaddaşa qeyd etmək üçün kifayət etmir. Bu səbəbdən, linqvo-psixoloji baxımdan *sözü və ya formanı dərk etmək, başa düşmək onun aid olduğu birinci sıra intellekt obrazını yaratmaq, yaxud da onunla əlaqəni təmin etmək* hesab olunur [32].

Bu qayda təkcə kök morfem tipli leksik səviyyəli formaların deyil, həmçinin leksik-qrammatik və qrammatik formaların da dərk olunması mexanizmini əhatə edir. Bəzən müxtəlif qrammatik kateqoriyaların şəkli əlamətləri və onların dərk olunmuş gerçəklik elementi arasında uyğunsuzluq müşahidə olunur. İ.Tahirov *indiki zaman mikrosahəsinin konstituentlərinin daha geniş zaman kəsiklərini əhatə edərək invariant semantik məzmun ətrafında birləşməsi* imkanından bəhs edir[33]. *Gələn həftə biz kəndə gedirik* cümləsində *–ir*[4] şəkilçi morfeminin iştirak etdiyi söz forması gələcək zamanı bildirən forma olaraq dərk edilir.

Burada dominant mövqeyi ilə fərqlənən ana dilində ekvivalenti olmayan realilərin[34] də dərk olunması məsələsinə toxunulur.

***"Sözün ikinci sıra gerçəklik elementi kimi dərk edilməsi"*** adlı yarımfəsildə qeyd edilir ki, söz yarandığı andan *intellekt obrazını* əks

---

[31] Əsgərov, M.B. Linqvopsixologiya və ya dilin psixologiyasэ / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, -2011, - s. 186

[32] Əsgərov, M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi / M.B.Əsgərov. – Bakı: Elm və təhsil, - 2015, - s. 115

[33] Tahirov İ.M. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası / İ.M.Tahirov. – Bakı: Nurlan, - 2007, - s. 80-81

[34] Романова, С.П. Пособие по переводу с английского на русский / С.П. Романова, А.Л.Коралова –Москва: Книжный дом, - 2006, - с. 32-33; Семенова, М.Ю. Основы перевода текста / М.Ю.Семенова. – Ростов-на-Дону: Феникс, - 2009, - с. 80-83

etdirərək ikinci sıra *gerçəklik elementi* mahiyyəti qazanır. Söz müəyyən orfoqrafik və səs kompleksindən ibarət olmaqla maddi səciyyəli müstəqil gerçəklik elementi kimi qəbul edilir və tam intellekt kodu formalaşdırır (daha ətraflı bax: [35]).

Sözün dərk edilməsinin linqvo-psixoloji əsaslarına istinadən belə qənaətə gəlmək olar ki, nitqin struktur vahidlərinin dərk edilməsi zamanı başlıca maneə onların hansı gerçəklik elementini əks etdirdiyini bilmədiyimizdən qaynaqlanır. Kommunikasiya iştirakçıları arasında müəyyən informasiya mübadiləsi gerçəklik vahidinə aid tam intellekt kodunu əmələ gətirən psixoloji və linqvistik elementlərin qarşılıqlı transformasiyası nəticəsində mümkün olur.

Nitq söyləminin bütün komponentləri, o cümlədən qrammatik əlaqələri tənzimləyən qrammatik formaların hər biri ayrı-ayrılıqda müstəqil gerçəklik elementi kimi dərk edilir. Məsələn, ingilis dilində *on* (*üzərində)* sözönünün iştirakı ilə yaranan *online* sözü, *on the telephone, on the internet, on TV* birləşmələrindən göründüyü kimi məhz efir, virtual məkan təsəvvürü, texnologiya vasitəsilə ünsiyyət məzmunu onlar üçün ortaq cəhət təşkil edir. Azərbaycan dilində bu məqsədlə məkan məzmunlu yerlik hal şəkilçisi *-da²* istifadə olunur. Bu formaların müstəqil şəkildə dərk olunmadığı təqdirdə onlardan istifadə mümkün deyildir.

Gerçəklik barədə müəyyən kateqoriya daxilində cəmləşmiş bilik və təsəvvürlər dildə müvafiq ifadə vasitələrində özünün inikasını tapır. Yəni, dil ifadə vasitələri obyektiv gerçəkliyə nəzərən ikinci dərəcəli mahiyyət daşıyır.

Növbəti yarımfəsildə subyektiv amillərin təsiri ilə sözün konkret diskursiv situasiyada öz ümumi sabitləşmiş semantikasından fərqli məzmunda istifadəsinin səbəbləri açıqlanır. *"Fərdi şüur vahidi olan məna, danışanın öz şüurunda mövcud olan söz mənalarının*

[35] Əsgərov, M.B. Sözün yaranması və mənimsənilməsi prosesi dil və dərketmənin minimal vahidlərinin modulyatoru kimi // - Bakı: Dilçilik institutunun əsərləri, - 2012. №2, - s. 140

*psixoloji strukturu vasitəsilə ifadə etməyə çalışdığı konkret dil ifadə vasitəsinə keçid olaraq nəzərdən keçirilir"* [36].

Sözdə qeyri-lüğəvi semantik assosiasiyalardan ibarət periferik yaxud potensial semantik komponentlər *psixoloji relevant məna* [37], *psixoloji real* və ya *psixolinqvistik məna* [38] olaraq təsvir edilmişdir. Psixolinqvistik nöqteyi-nəzərdən sözün mənası koqnitiv-intellektual emal prosesində strukturlaşmışdır.

Sözün cəmiyyət tərəfindən dərk olunması baxımından *dünyanın koqnitiv mənzərəsi, mentalitet və konseptosfer* terminləri barədə izahata yer verilir. Qeyd edilir ki, gerçəklikdə maddi-fiziki əsasa malik olmayan mücərrəd adların, məsələn *ləyaqət*, *mənəviyyat*, *əqidə* və s. obrazları şüurda diffuz xarakter daşıyır, yəni, bir fərddən digərinə müəyyən qədər fərqlənir. Buna baxmayaraq, onlar konkret ictimai-mədəni birlik üçün xas olan ümumi koqnitiv bazanı əks etdirir.

Dissertasiyanın **III fəsli *"Sözün mənasının daralma və genişlənməsi"*** adlanır və dörd yarımfəsildən ibarətdir.

***"Ənənəvi dilçilikdə sözün çoxmənalılığı məsələsinə münasibət"*** adlı birinci yarımfəsildə semasioloji hadisələrə diaxron və sinxron yanaşma zamanı istinad edilən əsas meyarlar qeyd olunur. Belə qənaətə gəlmək olar ki, çoxmənalılıq fərqli kontekst və situasiyalarda sözün müxtəlif siniflərə aid predmetləri adlandırmaq imkanından irəli gələn semantik hadisədir.

Semantik proseslərdə məntiqi-assosiativ əlaqənin növündən asılı olaraq metaforik köçürmələrdə referentlərarası bənzərliyə, metonimik köçürmələrdə isə zaman, məkan, səbəb-nəticə əlaqələrinə istinad olunur. V.İ.Koduxov məna dəyişiminin funksiya ümumiliyinə

---

[36] (Нео)психолингвистика и (психо)лингвокультурология: новые науки о человеке, говорящем / И.А.Бубнова, И.В.Зыкова, В.В.Красных [и др.] – Москва: Гнозис, 2017, - с. 102

[37] Леонтьев, А.А. Психолингвистические единицы и порождение речевого высказывание / А.А.Леонтьев. – Москва: URSS, КомКнига, - 2007, - с.197

[38] Попова, З.Д. Когнитивная лингвистика / З.Д.Попова, И.А.Стернин – Москва: Восток-Запад, - 2007, - с. 66- 67

əsaslandığı funksional köçürmədən də bəhs edir[39]. Ümumilikdə, məna köçürmələri zamanı obyektlərdən birinin obrazı digərini müşayiət edir.

Semantik struktur daxilində məna variantlarının iyerarxiyası nəzərə alınmaqla nüvə, törəmə və məcazi mənalı komponentlər fərqləndirilir. *Semantem, semem, sem, semantik minimum* terminləri barədə dilçilik ədəbiyyatında yazılanlara[40] istinad edilir. İ.Məmmədov çoxmənalılığın yaranmasında semantik strukturun əsas hissələrindən birini təşkil edən potensial semin[41], Z.Verdiyeva, F.Ağayeva və M.Adilov semaların fərqləndirici və ümumiləşdirici xüsusiyyətlərinin[42], T.Arbekova əsas və törəmə mənaları öz ətrafında birləşdirən semantik özək, mərkəzi məzmun və ya özək mənanın rolunu qeyd edir[43]. Burada mühüm cəhəti müəyyən semantik əlamət ümumiliyinin dərk edilməsi təşkil edir.

V.Q.Qak qeyd edir ki, *sözün mənası müəyyən qədər leksik paradiqm daxilində qonşu üzvlərin mənası ilə açıqlanır*[44]. Çoxmənalı sözün paradiqmatik əlaqələri xüsusilə mürəkkəbdir. Sözün aid olduğu hər paradiqmada onun mənalarından biri reallaşır. Mənanın həm də onun aid olduğu nitq hissəsindən, qrammatik kateqoriyanın xüsusiyyətlərindən, istifadə kontekstindən, digər sözlərlə konkret leksik əlaqələrdən asılı olduğununu söyləmək olar. Çoxmənalılığın yaranmasında gerçəkliyin təfəkkürdə inikası və insanın

---

[39] Кодухов, В.И. Введение в языкознание / В.И. Кодухов. – Москва: Просвещение, - 1987, - с. 192

[40] Cabarova, A.Q. Müxtəlifsistemli dillərdə rəng adlarının struktur-semantik xüsusiyyətləri (alman və Azərbaycan dillərinin materialları əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2014; İzahlı dilçilik terminləri lüğəti / S.Sadıqova, N. Hüseynova, İ. Abdullayeva [və b.] - Bakı: Elm, - 2018, - s. 658

[41] Məmmədov, İ. Azərbaycan dilinin semantikası / İ.Məmmədov. Bakı: Xəzər, - 2006, - s. 230-233

[42] Verdiyeva, Z.N. Azərbaycan dilin semasiologiyası / Z.N.Verdiyeva, F.M.Ağayeva, M.İ.Adilov; - Bakı: Maarif, - 1979, - s. 295-298

[43] Арбекова, Т.И. Лексикология английского языка / Т.И.Арбекова. - Москва: Высшая школа, -1977, - с. 86

[44] Гак В.Г. Сопоставительная лексикология / В.Г.Гак – Москва: Международные отношения, 1977, - с.8

ümumiləşdirmə qabiliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu o deməkdir ki, çoxmənalılıq yaradıcı təfəkkür prosesləri ilə üzvi surətdə bağlıdır.

***"Sözün mənasının fərdi səviyyədə daralma və genişlənməsi"*** adlı ikinci yarımfəsildə ilk öncə dilin məzmun sisteminin uşaqlar tərəfindən mənimsənilməsi məsələsi nəzərdən keçirilir. Qeyd edilir ki, uşaqların koqnitiv inkişafının gedişi prosesində müxtəlif sözlərdən istifadə etməsi onlarda dünyanın konseptual mənzərəsinin formalaşdığını göstərir.

Uşaqlarda sözün başlıca funksiyası olan adlandırma və ya predmetlə müstəqil şəkildə əlaqələndirmənin formalaşma dövründə sözün mənasınında başlıca olaraq əyanilik, sinkretizm (bir neçə məna komponentinin bir forma daxilində birləşməsi) əlamətləri üstünlük təşkil edir. İlk anlayışlar diffuz xarakterlidir. H.Rubinşteyn və M.Aborna görə, *uşaq üçün dili öyrənmək, bəzi hallarda qeyri-bənzər stimulun eyni, bənzər stimulların isə fərqli adlarla adlandırıldığı təsnifat sxemlərindən ibarətdir*[45]. Anlayışın formalaşmasında onun xüsusiyyətlərindən birinə subyektiv olaraq baza komponent kimi istinad edilir.

Tədqiqatda uşaqlar tərəfindən aparılan ümumiləşdirmələrin aşağıdakı üç başlıca istiqaməti müəyyənləşdirilmişdir:

1) *Obyektiv aləmin bənzər gerçəklik vahidlərinin eyni adla adlandırılması.* Nominativ intellektual inkişaf bazasında əvvəlcə söz mənalarının diferensiasiyası (zahiri, oxşar və əyani əlamətlərə əsaslanmaqla) başlayır, daha ətraflı:[46].

2) *Xüsusidən ümumiyə doğru aparılan təfəkkür əməliyyatları.* Aşağıdakı söz qrupları buna misal ola bilər: *yağ, süd, çörək, ... - ərzaq* və s.

3) *Əlamətdar cəhətlər üzrə məna köçürmələri ilə bağlı təfəkkür əməliyyatları.* Bu istiqamətdə ümumiləşdirici təfəkkür əməliyyatlarının reallaşmasında müstəsna rol analiz və sintez proseslərinə məxsusdur. Bu proseslər obyektiv gerçəklikdən

---

[45] Rubenstein H. Psycholinguistics / H.Rubenstein, M.Aborn. - 1960, - p. 307

[46] Nəcəfov, C.Ə. Uşaq anatomiyası və fiziologiyası / C.Ə.Nəcəfov, N.R.Zeyniyev, S.M.Quliyev - Bakı: Müəllim, - 2005, - s. 68; Hacıyeva, Ə.H. Uşaq nitqinin linqvistik təhlili / Ə.H.Hacıyeva. - Bakı: Maarif, - 1994, - s. 52

mücərrəd təfəkkürə doğru inkişafın başlıca səbəblərini təşkil edir. Mücərrəd təfəkkür sayəsində metaforik və metonimik məna köçürmələri kimi mürəkkəb semantik münasibətlər qurulur. Ümumi cəhəti müəyyənləşdirən zaman sözün aid olduğu öncədən dərk olunmuş gerçəklik vahidinin ən vacib və əlamətdar xüsusiyyətinə istinad olunur. Söz, bu ümumi əlaməti paylaşan müxtəlif predmetlərə aid edilir.

Ç.Osqud və T.Sebeoka görə, *məna dəyişmələri zamanı obyektin perseptiv işarəsi ($S_1$) ilkin linqvistik reaksiyaya ($R_1$) nisbətən indi daha fərqli reaksiyaya ($R_2$) səbəb olur* [47].

Beləliklə, mürəkkəb koqnitiv proses hesab olunan uşaq polisemantizmi konseptə xas olan əlamətlərin digər konseptlərdə də mövcudluğu və onlar arasında bənzərliyin təsbit olunması prinsipi üzrə həyata keçir. Nəticədə, konkret və əyani anlayışlar mücərrəd şəkildə reprezentasiya olunur. Bütün bunlar söyləməyə əsas verir ki, dərketmənin birinci mərhələsində, hissi səviyyədə konkret şəkildə dərk olunan informasiya, şərhetmə səviyyəsində mücərrəd xarakter qazanır. Yaşla bağlı intellektual imkanlar sözün assosiativ sahəsinin yenidən qurulmasını müəyyənləşdirir.

***"Situativ məqamlarda sözün mənaca daralma və genişlənməsi"*** adlı yarımfəsildə qeyd edilir ki, adlara və feillərə müəyyən şəkilçilərin artırılması ilə düzələn formalar mücərrəd əşya, varlıq, ismi və feili əlamət məzmunu əmələ gətirir. Nitqin situativ və ya müvəqqəti ehtiyacları mövcud sözün ikinci təqdimat şəklində istifadəsinə səbəb olur[48].

Dilin okkazional ehtiyaclarından irəli gələrək nitqin struktur elementlərindən birini xüsusi olaraq nəzərə çatdırmaq üçün mücərrədləşdirmədən istifadə olunur. Bu səbəbdən, yeni yaranan bu formalar okkazional formalar kateqoriyasında nəzərdən keçirilir. Praqmatik yönümlü okkazional formalar dilçilikdə adətən müəllif yaradıcılığı sayəsində təzahür edən variantlar kimi qiymətləndirilir

[47] Psycholinguistics. A Survey of Theory and Research Problems / Ed.by Ch. E.Osgood, T.A.Sebeok, - Indiana University Press, - 1965, - p.160-162

[48] Əsgərov, M.B. Zaman formaları, adverbial fel formaları və onlar arasında funksional semantik əlaqələr / M.B.Əsgərov. - Bakı: Nurlan, - 2002, - s. 54

və uzual dil elementləri ilə oppozisiya təşkil edir. Leksikoqrafik təsvirlərlə müqayisələrin aparılması bu qənaətə gəlməyə əsas verir ki, ikinci təqdimat zamanı yaranan formalar müstəqil söz mahiyyəti daşımır. Reprezentativ situativ istifadə bazasında fərdi səviyyədə mənaca daralma və genişlənmə müşahidə olunan söz forması frazeoloji derivasiya proseslərinin aktuallaşmasında fəal iştirak edir. Frazeologizmlərin konseptual-struktur komponentlərini nəzərdən keçirdikdə[49] burada müstəqim mənaya malik sözün sosial təcrübə kontekstində metoforik səciyyəli məcaziləşməsi aşkar görünməkdədir. Frazeoloji ifadələrin semantik komponentlərinin təhlil nəticələri göstərir ki, konkret birləşmə daxilində sözün standart semantikası üçün tipik olmayan assosiasiyalar əks olunur. *Yıxılana balta vuran çox olar* nümunəsində *yıxılan* sözünün *maddi ziyana uğramış, nüfuzuna xələl gəlmiş* və s. yaxud türk dilində işlənən *Araba kırılınca yol gösteren çok olur* atalar sözü tərkibində yol gösteren ifadəsinin – *öyüd, nəsihət verən* mənaları aktuallaşır.

***"Sözün mənaca daralma və genişlənməsinə ictimai şüurun təsiri"*** adlı yarımfəsildə qeyd edilir ki, cəmiyyət üzvlərinin təfəkkür fəaliyyətinin nəticələri dildə obyektivləşir. Dilçilərin böyük əksəriyyəti birmənalı olaraq leksik səviyyənin sosial amillərin təsirinə daha çox məruz qalması qənaətindədir [50]. R.Vordhou dil və cəmiyyət arasında əlaqənin aşağıdakı təzahür formalarından biri kimi ictimai quruluşun linqvistik struktura təsir edib onu müəyyənləşdirməsini qeyd edir[51].

İctimai şüurun təsiri ilə müşayiət olunan semantik dəyişmələr öz növbəsində üç cür qruplaşdırıla bilər:

---

[49] Həsənova, V.Ç. Müxtəlif sistemli dillərdə frazeologizmlərin tipoloji ekvivalentliyi / V.Ç.Həsənova. – Bakı: Mütərcim, - 2015. -76 s.; Seyidəliyev, N.F. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası / N.F.Seyidəliyev. – Bakı: Araz, - 2006. -326 s.

[50] Rəcəbli, Ə. Sosiolinqvistika / Ə.Rəcəbli. – Bakı: Nurlan, -2004, s. 338; Rüstəmova, A.B. İctimai inkişaf və dil / A.B.Rüstəmova. - Bakı: Təknur, - 2012. – 142 s.; Agha A. Language and Social Relations / A.Agha. Cambridge: Cambridge University Press, - 2007. – 527 p.

[51] Wardhaugh R. An Introduction to Sociolinguistics / R.Wardhaugh. – USA: Blackwell Publishing, - 2006, - p. 10

*Birincisi,* xalqın təfəkkür fəaliyyəti, predmet və hadisələrə ictimai şüurlu münasibətin dəyişməsi nəticəsində söz mənasının müxtəlif modifikasiyaları.

*İkincisi,* tarixi-ictimai inkişafın müəyyən pilləsində elm, texnika, iqtisadiyyat, mədəniyyət, incəsənət və s. sahələrdə baş verən tərəqqi sayəsində ictimai şüurda yeni gerçəklik vahidlərinin və onların adlandırılması zərurətinin meydana gəlməsidir. Nəticədə mövcud sözün leksik mənası müəyyən dəyişikliyə uğrayır.

*Üçüncüsü,* bu semantik dəyişmələr özünəməxsusluğu ilə xarakterizə olunan müxtəlif sosial kontekstlərdə sözdən istifadə sayəsində baş verir. Yüksək istifadə tezliyi müşahidə olunan yeni məzmun komponentləri asanlıqla ümumi dil faktına çevrilərək öz mövqeyini möhkəmləndirir.

***"Mənaca daralma və genişlənmə dilin inkişaf yollarından biri kimi"*** adlı sonuncu yarımfəsildə Boduen de Kurtenenin belə bir mülahizəsinə istinad olunur ki, fikrin mücərrəd ifadəsi üçün konkretdən abstrakta keçid prosesi dilin inkişafını şərtləndirir. Eyni zamanda bu keçid dilin sistem və strukturunu müəyyən edən əsas səbəblərə aid edilir[52].

İctimai şüurda baş verən və uzun sürən təfəkkür əməliyyatlarının, təkamül və ümumiləşdirmənin nəticəsində müəyyən qrup sözlər ilk mənasını saxlamaqla yanaşı ictimai-siyasi müstəvidə yeni məna qazanır. Sözün mənası metaforik və metonimik köçürmələr yolu ilə məcazi mənanın formalaşması sayəsində dəyişir. B.A.Serebrennikova görə, mahiyyətcə, metafora söz yaradıcılığı modelləri ilə eyni funksiyanı, lakin daha "gizli" və qeyri-standart tərzdə icra edir[53]. Metaforanın yaranma mexanizmi müqayisə və sintez kimi məntiq əməliyyatlarının nəticəsi olmaqla yeni adlandırmalara gətirib çıxarır. Məcaziliyin artması nəticəsində çoxmənalılıqdan omonimliyə doğru inkişafın müşahidəsinə əsasən mənşəcə qohum olan omonim sözlərin çoxmənalı sözün semantik

---

[52] Boduen de Kurtene, İ.A. Ümumi dilçilik üzrə əsərləri / İ.A.Boduen de Kurtene. Bakı: Prestij, - 2014, - s. 46

[53] Серебренников, Б.А. Роль человеческого фактора в языке. Язык и картина мира / Б.А.Серебренников – Москва: Наука, - 1988, - с.180

inkişafı nəticəsində yaranması qənaətinə gəlinir. Hətta bəzən söz semantik qütbləşmə - enantiosemiya nəticəsində tamamilə əks məna bildirir.

Sözün əsl semantik mahiyyəti paradiqmatik və sintaqmatik əlaqələr fonunda müəyyənlik tapır. Fərqli sintaqmatik cərgələrdə nəinki dil sistemindəki məna komponentlərindən biri reallaşır, həm də yeni semantik komponentlər meydana gəlir. Nəticədə, yaranmış yeni semantik variant sayəsində söz müvafiq olaraq, digər bir paradiqmatik cərgəyə qoşulmuş olur.

Zaman keçdikcə sözün semantik strukturunda komponentlərin əsas mənadan kənar-periferik mənaya və yaxud əksinə keçid etməsi çox rast gəlinən semantik proseslərdəndir. Məsələn, ingilis dilində *traffic* sözünün semantik strukturunu təşkil edən əsas məna - *ticarət* müasir dövrdə törəmə məna kimi qəbul edilir. *Traffic jam* (tıxac), *traffic lights* (işıqfor) söz birləşmələrindən göründüyü kimi, hazırkı dövrdə əsas məna *yol hərəkəti, nəqliyyat* bildirir.

Məna genişlənməsinin nəticəsi olaraq *bəzi hallarda* yeni və köhnə komponentlər yanaşı mövcudluğunu davam etdirir və paralel istifadə olunur və bu zaman iki fərqli variant müşahidə edilə bilər, ya komponentlər arasında ierarxiya gözlənilir, ya da mövqe dəyişməsi baş verir, *bəzən isə* mövqeyini dəyişən komponentlərdən birinin istifadəsi dayandırılır və həmin məna komponenti semantik cərgəni ümumiyyətlə tərk edir. Semantik hadisə və proseslərin təhlili zamanı diaxron və sinxron yanaşma bir-birini tamamlayır.

**Tədqiqat işində aşağıdakı əsas nəticələr əldə edilmişdir:**

Linqvo-psixoloji vəhdət nəzəriyyəsində qeyd edildiyi kimi, söz təbiətin yaratdığı ilkin və ya birinci sıra gerçəklik vahidi deyil. Bununla belə bütün gerçəklik vahidləri ilə bağlı istənilən informasiya mübadiləsi və insanlar arasında baş verən hər cür ünsiyyət məhz sözlər vasitəsilə təmin edilir. Hətta real və ya vizual şəkildə müşahidə edilməsi mümkün olmayan birinci sıra gerçəklik vahidlərinin (məsələn, molekul, atom, elektron, proton və s.) dərk edilməsi prosesi də məhz söz vasitəsi ilə reallaşır. Qeyd edilən

nəzəriyyə əsasında sözün inkişaf təmayüllərinin tədqiq olunduğu bu dissertasiya işində əldə edilən əsas elmi nəticələr bunlardır:

1. Gerçəklik vahidi barədə əldə edilən informasiya subyektiv təcrübə kontekstində şərh olunur və mücərrədləşir. Sözlər vasitəsilə qəbul edilən informasiyanın koqnitiv emal prosesində ayrılıqda fərd, geniş mənada isə cəmiyyət tərəfindən onun dərk olunmasının nəticələri öz əksini tapır. Bəzən fərdi düşüncə və ya ictimai şüur, bəzən isə nominativ və ya reprezentativ istifadə sözün ilkin mənasının dəyişməsinə səbəb olur.

2. Obyektiv aləmdə mövcud olan və ya mövcud olduğu qəbul edilən gerçəklik vahidləri müxtəlif dillərdə özünün fərqli əlamətləri və ya gerçəklik elementi əsasında dərk edilir və adlandırılır. Adverme zamanı gerçəklik vahidinin daha çox nəzərəçarpan və ya daha çox əhəmiyyət kəsb edən müəyyən bir əlaməti əsas götürülür.

3. Hər bir söz forma, məna və məna mənbəyindən ibarət olan linqvo-psixoloji fenomendir. Sözün forması dedikdə onun yazılış və ya tələffüz şəkli, məna mənbəyi dedikdə onun əks etdirdiyi gerçəklik vahidi, mənası dedikdə isə həmin gerçəklik vahidinin ən əsas və ya ən üzdə olan xüsusiyyəti, yəni gerçəklik elementi nəzərdə tutulur.

4. Sözün formasının və ya məna mənbəyinin dəyişməsi əvvəlkindən fərqli yeni bir sözün yaranması kimi qəbul və təqdim edilir. Sözdə əsas dəyişkənlik, bir qayda olaraq, onun məna qatında müşahidə olunur. Elə bu səbəbdəndir ki, gerçəklik vahidi dərk edilib sözə çevrilənə və müvafiq diskurs daxilində işlənənə qədər onun semantik qatında dəfələrlə ümumiləşmə, mücərrədləşmə və ya gerçəkliyin nisbi ifadəsi prosesi baş verir.

5. Fərdi şüurda mənanın psixoloji strukturu müxtəlif mürəkkəbliyə və formaya malik mental reprezentasiyalar formasında mövcuddur. Sözün semantikasının dil daşıyıcıları üçün reallıq kəsb edən psixoloji strukturu müəyyən assosiativ sahə ilə xarakterizə olunur. Çoxpilləli assosiativ proseslər bazasında dil şüuru daima dəyişkənliyə, dinamikliyə və mütəhərrikliyə meyl göstərir.

6.Linqvo-psixoloji baxımdan sözün semantik inkişafı insan tərəfindən dərk olunan minimal vahidlər bazasında reallaşır. Sözün metaforik olaraq yenidən mənalandırılması və ya onunla bağlı yeni

obrazın aktivləşməsi dərketmənin minimal vahidinə əsaslanan koqnitiv modelləşdirmənin nəticəsi olaraq qəbul edilməlidir. Sözün mənaca inkişafı gerçəklik vahidinin daha aktual və əsas hesab edilən xüsusiyyətinə istinad olunmaqla aparılan assosiativ əlaqələndirmə, identifikasiya və ümumiləşdirmələrin nəticəsi hesab olunur.

7. Funksional nitq prosesində sözdən situativ xarakterli istifadə nəticəsində dil daşıyıcılarının nitqində mücərrəd əşya, ismi və ya feili əlamət məzmunlu reprezentativ formalar meydana gəlir. Burada sözün standart nominal-funksional semantikasından kifayət qədər fərqlənən assosiativ-semantik sahə müşahidə olunur. Reprezentativ-situativ məqamlar sözün mənasının ictimai şüurda modifikasiya olunması üçün real imkanlar yaradır.

8. Sözün mənaca genişlənməsi və daralması əksər halllarda intralinqvistik, bəzən isə ekstralinqvistik səbəblərdən baş verir. Semantik inkişafda sosial amillərin rolu müəyyən tarixi dövrdə ictimai inkişafın səviyyəsindən, milli şüurun spesifikasından və sairədən də asılıdır.

9. Gerçəklik vahidinə ad verilməsi nəticəsində yaranan sözlərdə semantik dəyişmələr milli baza əsasında müstəqil leksik vahidlərin formalaşma yollarından biri kimi nəzərdən keçirilə bilər. Semantik variativlik, ikinci təqdimat, yaxud reprezentasiya yolu ilə sözdən istifadə dildə müxtəlif frazeoloji birləşmələrin, idiomların, həmçinin atalar sözlərinin yaranmasında sözün fəal iştirakı ilə nəticələnir. Sözün bədii əsərlərdə metaforik və metonimik mənada işlənməsi ilə nəticələnən fərdi-müəllif modifikasiyalarından istifadə bədii əsərdə ifadənin emosionallığını artırır və obrazlılığı təmin edir.

10. Semantik strukturu təşkil edən məna komponentləri arasında iyerarxik asılılıq zaman keçdikcə komponentlərarası yerdəyişmə nəticəsində əsas mənanın ikinci plana keçməsi və eləcə də periferik mənaların əsas məna statusu qazanması imkanları barədə fikir söyləməyə əsas verir. Semantik komponentlərin düzülüş qaydasında belə əhəmiyyətli dəyişikliklər sözün dil sistemi daxilində keçdiyi çoxpilləli təkamül proseslərinin nəticəsidir.

11. Sözün diskursiv qarşılığının konsept olduğunu nəzərə alaraq belə də demək mümkündür ki, leksik səviyyəli söz bu və ya

digər konseptin nüvəsi, yardımçı morfem səviyyəli söz diskursun nüvəətrafı zonası, iki və daha artıq sözün birşləşməsindən yaranan deyim və ya söyləm isə konseptin periferiyası kimi çıxış edə bilər.

**Dissertasiya işinin əsas məzmunu və elmi müddəaları aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. Similarities and Differences between Polysemy and Homonymy // - Bakı: AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, - 2017. № 7, - s. 122-128
2. Dilçilikdə söz-məfhum problemi, sözün məzmunu və motivasiyası // - Bakı: ADU. Azərbaycanda xarici dillər, - 2017. № 1, - s. 120-124
3. Tərcümə prosesində ən çox rast gəlinən leksik-frazeoloji problemlər // - Bakı: ADU. Dil və ədəbiyyat, - 2017. Cild 8, №3, - s. 78- 82
4. The Problem of Polysemy in Translation / BMU // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq elmi konfransı. – Bakı: - 5-6 may, - 2017, - s. 1014
5. Sosial kontekst sözün mənasının dəyişməsinə təsir edən faktorlardan biri kimi / ADU // Tətbiqi dilçiliyin müasir problemləri. III Beynəlxalq elmi konfrans. – Bakı: - 25-26 oktyabr, - 2018, - s.83
6. Sözün semantik strukturunun inkişafında sosial amillərin rolu // - Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu. Dilçilik institutunun əsərləri, - 2018. № 2, - s. 264-269
7. Sözdə mənanın inkişafının koqnitiv aspektdə öyrənilməsi // -Bakı: AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, - 2019. № 1, -s. 191-197
8. Многозначность как одно из основных направлений развития значимой стороны слова // Вестник Атырауского Государственного Университета имени Х. Досмухамедова, - 2019. № 1, - с. 4-11

9. Sözün yaranması ənənəvi dilçilik və linqvo-psixoloji aspektdə / AMEA Nəsimi adına Dilçilik İnstitutu // M.Mirzəliyevanın 70 illik yubileyinə həsr olunmuş "Azərbaycan dilçiliyinin aktual problemləri" Respublika elmi konfransı. – Bakı: - 28 oktyabr, - 2019, - s. 47-49

10.Koqnitiv dilçilik ən müasir psixolinqvistik istiqamət kimi // -Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər, - 2019. № 3, - s. 84-89

11.Leksik vahidlərin məna strukturunda baş verən dəyişikliklər // - Bakı: AR Nazirlər Kabineti yanında Terminologiya Komissiyası. Terminologiya məsələləri, - 2020. №1, - s. 220-230

12.Basic Factors Motivating the Extension of Word Meaning // - International Journal of English Linguistics, - Canada: Canadian Center of Science and Education. - 2020. Vol.10, No. 5, - p. 60-67

13. Mənanın formalaşmasının subyektiv amillərdən asılılığı // Van Uluslarası Sosyal Bilimler Konqresi. - Van: - 24-25 Temmuz, - 2020 , - ISBN 978-625-7139-18-2, - "ISPEC Yayınevi", - s. 106-113

14.Иерархия и взаимозамещение лексико-семантических вариантов в семантической структуре слова // Актуальні питання гуманітарних наук: Міжвузівський збірник наукових праць молодих вчених Дрогобицького державного педагогічного університету імені Івана Франка, - 2020. Выпуск 30. Том 2, - с. 104-111

15.Semantik inkişafın təfəkkür prosesləri baxımından izahı // - Bakı: ADPU. Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, - 2020. № 2, - s. 48-56

16.Dilçilikdə psixolinqvistik fikrin inkişaf tarixinə bir nəzər // - Bakı: BSU. Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, - 2020. № 2, - s. 67-76

17. Роль семантических событий и процессов в развитии целой языковой системы // «Advances in Science and Technology» XXXII Международная научно-практическая конференция. Научно-издательский центр «Актуальность. РФ» Сборник статей. - Москва: - 31 октября, - 2020, - с. 184-188

18. Sözdə forma və mənanın vəhdəti probleminə antik fəlsəfədə adlar nəzəriyyəsinin münasibəti / Azərbaycan Universiteti // Gənc tədqiqatçıların IV Respublika elmi-praktik konfransının materialları. – Bakı: - 9 aprel, - 2021, - s. 107-108

19. İctimai şüurun təsiri ilə müşayiət olunan semantik dəyişmələr // "Humanitar və ictimai elmlərin əsasları" mövzusunda III Respublika elmi konfransının materialları. – Bakı: - 30 aprel, - 2021, - s. 44-47

20. Uşaq nitqində ilk struktur elementlərinin formalaşmasının əsas xüsusiyyətləri / SDU // Birinci Türkoloji Qurultayın 95-illik yubileyinə həsr edilmiş "Türk dilləri və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları. – Sumqayıt: - 20-21 may, - 2021, - s. 649-652

21. Reprezentasiya və ya ikinci təqdimat hadisəsinin frazeologiya yaradıcılığında rolu // - Sumqayıt: SDU. Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi, - 2021. Cild 17. № 2, - s. 19-24

22. Koqnitiv inkişafın gedişində uşaqlar tərəfindən dilin ifadə və məzmun planının mənimsənilməsi // - Bakı: AMEA Nəsimi adına Dilçilik İnstitutu. Dilçilik araşdırmaları, - 2021. № 2, - s. 117- 121

23. Semantik üsulla söz yaradıcılığı dildə yeni sözlərin yaranma yollarından biri kimi // - Bakı: Azərbaycan Universiteti. İpək yolu, - 2024. № 3, -s. 146-154

Dissertasiyanın müdafiəsi 04 Fevral 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 Dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.12.2024
Kağız formatı: 60x84 16\[1]
Həcm: 42 926 işarə
Tiraj: 100